**Aktual mövzu: "Multikulturalizmin sosial-fəlsəfi təhlili" monoqrafiyasına fəlsəfi baxış**

DOI:10.30546/ifs.2021.1(36).146

Professor Etibar Nəcəfovun "Multikulturalizmin sosial-fəlsəfi təhlili" adlı monoqrafiyası yalnız mövzu baxımından ölkəmizdə bir ilk deyildir. Problemin qoyuluşu, analizi və gəlinən qənaətlər aspektində də yeniliklərlə zəngindir. Nədənsə bir sıra hallarda elmi kitabların təhlilində məsələnin metodoloji tərəfinə bir qədər az vurğu edilir. Əslində Azərbaycan kimi əhatəli yeniləşmələr mərhələsində olan bir cəmiyyət üçün fəlsəfi-elmi dairələrin hansı yeni yanaşmalara müraciət etməsinin araşdırılması çox vacibdir. Ayrıca, professor E.Nəcəfovun müraciət etdiyi multikulturalizm kimi bütövlükdə dünya üçün yeni olan bir mövzudan söhbət gedirsə və tədqiqatda problem elmlə təhsilin qarşılıqlı münasibətləri müstəvisində qoyulursa, vurğuladığımız məqam daha aktual təsir bağışlayır. Bu məqamı monoqrafiyada baxılan məsələlər kontekstində bir qədər geniş aydınlaşdıraq.

Məlumdur ki, multikulturalizmlə bağlı dünya miqyasında fəlsəfi-elmi (o cümlədən, sosial-fəlsəfi) aspektdə yekdil fikir yoxdur. Avropada bu məsələni müəyyən elmi və siyasi dairələr aktual (faydalılıq, cəmiyyət üçün səmərəlilik baxımından) hesab etmirlər. Elə ölkələr də var ki, ümumiyyətlə, multikultural yaşam tərzinə malik deyillər və ancaq onu termin olaraq bilirlər. Bunlarla yanaşı, elə cəmiyyətlər də mövcuddur ki, multikultural həyat tərzi, düşüncə forması və bütövlükdə mövcudluq forması kimi multikulturalizmə daxili intensiyası (canatması) vardır. Yəni multikulturallıq, Aristotelin təbirincə desək, həmin cəmiyyətlərin özyetərliliyi, özrefleksiyası və kamilliyinin ("kamillik" burada Aristotel mənasında istənilən obyektin özinkişafında varlığına tam nail olması anlamında işlədilir) təsdiqi formasıdır. Prof. Etbar Nəcəfovun monoqrafiiyasının ana məntiqi xəttini (əgər belə demək mümkündürsə) Azərbaycanın cəmiyyət və dövlət olaraq sonuncu vurğuladığımız özəlliyə malik olması təşkil edir. Monoqrafiyada bu tezisin doğruluğunu təsdiq edən parametrlər vardır. Onların üzərində dayanaq.

Multikultualizmin mövzu olaraq təbiəti baxımından onu hansı bucaq altında araşdırma çox vacibdir. Çünki məsələ yalnız fəlsəfi-elmi parametrlərlə bağlı deyil. Qlobal miqyasda sosial, siyasi, mədəni, ideologiya və bütövlükdə birgəyaşam qaydası kimi müzakirə mövzusudur. Bu özəllik hər bir konkret cəmiyyət və dövlət üçün multikulturalizmi fəlsəfi, sosioloji, antropoloji, etik və kulturoloji aktual etdiyi qədər də siyasi-ideoloji və idarəetmə fəlsəfəsi cəhətdən də aktual edir. Bu kimi problemlərə müasir elmdə "mürəkkəb problemlər" deyirlər və onları araşdırmaq üçün "mürəkkəblik paradiqması" adlanan elmi-metodoloji təlim formalaşır (proses hələ gedir).

Lakin multikulturalizmdə bu aspektdə də bir özəllik vardır. Məsələ ondan ibarətdir ki, bu mövzu həm də sadə və anlaşıqlı dildə izah olunmalıdır ki, təhsildə istifadə oluna bilinsin. Yəni multikulturalizmi aktual elmi-siyasi və sosial-fəlsəfi problem kimi akademik dildə, ciddi məntiqi çərçivədə, müasir yanaşma prizmasında tədqiq etmək məsələnin bir vacib tərəfidir. Digər, ondan az olmayan əhəmiyyətli tərəfi təhsil alan gənclərin anlayacağı dildə onu təqdim etməkdən ibarətdir. Prof. Etibar Nəcəfovun monoqrafiyasında bu iki istiqamətin uyğunlaşdırılması kitabın uğurlu tərəfində sonuncu yeri tutmur. Bu çətin vəzifənin öhdəsindən müəllif əsərin bilik və konkret struktur-funksional formaya malik kitab olaraq vəhdətinə nail ola bilmək əsasında gəlib.

Biz bununla artıq monoqrafiyanın daha dərin və konkret qatda analizinə keçməliyik. Öncə, müəllifin fəlsəfi yanaşması haqqında fikir bildirək. Kitabda multikulturalizmin sosial-mədəni, siyasi, ideoloji, etik birgəyaşam modeli olaraq poststruktural mövqedən analiz edildiyini görürük. Əlbəttə, əsər konkret və dəqiq işlənmiş struktura malikdir. Baxılan məsələlərin bütövlükdə problemin dərkində oynadığı rol və tutduğu yer də aydın təqdim olunub. Ancaq müəllif maraqlı formada bu strukturallıqda multikulturalizmin heç bir aspektini mərkəz kimi təqdim etmir. Bu aspektdə müəllifin yanaşması posstruktural müstəviyə keçir. Yəni əsər bir sistemdir, strukturdur, lakin orada hər hansı punkt mərkəz deyil - hər bir problemi "mərkəzi punkt" kimi dərk etmək olar. Bu da müəllifin multikulturalizmi haqlı olaraq çoxaspektli məsələ kimi qəbul etdiyinin təsdiqidir. Eyni zamanda, bu

anlayışın hər bir aspektinin əhəmiyyətli olmasının göstəricisidir. Bu baxımdan şərti olaraq əsəri (daha doğrusu, təfəkkür hadisəsi, fikir təkamülü kimi) bir neçə bloka bölmək olar.

Əsər multikulturalizmin mahiyyətini izah etməklə başlayır (səh.17-55). Burada multikulturalizm sosial-mədəni hadisə, dövlət siyasəti və həyat tərzi olaraq kompleks çərçivədə təqdim olunur. Kitabı oxuduqca aydın olur ki, bu yanaşma yalnız ilk fəsildə problemi təqdim etməyə xidmət etmir, bütövlükdə araşdırmanın məntiqi, mahiyyəti və fikir karvanının ana xəttidir. Müəllif məhz həmin kontekstdə multikulturalizmin tənqidinə baxır, onu tolerantlıq və interkulturalizmlə müqa.yisə edir. Sonrakı fəsillərdə multikulturalizmin analizi məhz bu məntiqi yanaşmanın üzərində ardıcıllıqla qurulur.

Belə ki, II fəsildə E.Nəcəfov multikulturalizmə iki fərqli baxışı analiz edir. Liberalist yanaşma ilə kommunitarizm yanaşmalarının sosial-fəlsəfi müqayisəsi problemə müasir mərhələdə fərqli yanaşmaların mövcud olduğunu göstərir. Fəlsəfi olaraq burada liberalizmin timsalında təkcədən (fərddən) ümumiyə (cəmiyyətə) və ümumidən (cəmiyyətdən) təkcəyə(fərdə) keçidlərin sosial-fəlsəfi mexanizmlərinin multikulturalizm konekstində fərqli və ziddiyyətli tərəflərinin analiz olunduğunu görürük. Müəllif yazır: "Multikulturalizmə liberalizm yanaşması liberalizm nəzəriyyəsinə uyğun olaraq fərdin öz seçimində azad olduğunu göstərərək onun bu seçiminə cəmiyyətdəki etnik-mədəni dəyərlərin təsir etmədiyini göstərir" (səh. 57). Multikulturalizmə kommunitarist yanaşmanı analiz edərkən isə E.Nəcəfov vurğulayır: "Liberalizm yanaşmasından fərqli olaraq, kommunitarizm yanaşması subyektlərin formalaşmasını konkret cəmiyyətlə, konkret etnik-mədəni dəyərlər sistemi ilə əlaqələndirir. Buna görə də kommunitarizm liberalizmdən fərqli olaraq etnik-mədəni icmaların dəyərlərinin qorunmasını vurğulayan multikulturalizm siyasətini müdafiə edir" (səh. 68).

Vurğulanan müqayisələr nəzəri səviyyədə müəllifin problemə sistemli, əhatəli və müasir baxışlar prizmasından yanaşdığını göstərməklə yanaşı, sonrakı təhlillər üçün də zəmin hazırlamış olduğunu nümayiş etdirir. III fəsildə multikulturalizmə başqa siyasi modellərlə müqayisədə baxılması və ondan sonra daxili və xarici siyasətlə münasibəti aspektində analiz edilməsi həmin kontekstdə tam yerinə düşür.

Assimilyasiya siyasət modeli (səh. 80-83) və izolyasiya siyasət modelinin (səh. 83-87) multikulturalizm siyasət modeli ilə müqayisəli təhlili sonuncunun üstünlükləri haqqında aydın təsəvvür yaradır. Bəşər tarixi göstərir ki, nə assimilyasiya nə də izolyasiya toplumu bütövləşdirmir, fərdlərin tam hüquqlu vətəndaş kimi yaşamasına imkanlar yaratmır. Əksinə, meydana yeni-yeni ziddiyyətlər, münaqişələr və bölücülük çıxır. E.Nəcəfov yazır: "Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi assimilyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyələrinin ləğv edilməsinin qarşısımı almaqla və bu dəyərləri qorumaqla yanaşı, izolyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait və milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli imkan yaradır" (səh.87).

III fəsildə rast gəlinən bu nəzəri "ruh" IV fəsildə konkret olaraq dövlət səviyyəsində daxili və xarici siyasətin bir-birini tamamlaması kontekstində tam olaraq özünü tapır. Bununla monoqrafiyanın daxili məntiqində maraqlı bir keçid baş vermiş olur.

Biz, müəllifin multikulturalizm haqqındakı fəlsəfi-nəzəri təsəvvürlərin dövlət səviyyəsində dövlət siyasəti kimi hansı məzmun kəsb etdiyini təhlili təqdim etməsini nəzərdə tuturuq. Bununla E.Nəcəfov iki elmi məqsədə çatmış olur. Birincisi, multikulturalizm ümumilikdə toplumun bütün fəaliyyət sferaları ilə sıx bağlıdır. Yəni o, təbii olaraq cəmiyyətin özündə mövcuddur. İkincisi, məhz buna görədir ki, Azərbaycanın timsalında multikulturalizm ziddiyyətsiz şəkildə daxili və xarici siyasət xətti kimi həyata keçirilə bilinir. Bunun fonunda müəllifin multikulturalizm siyasətinin konkret ölçülməsi məsələsini növbəti, V fəsildə təhlil etməsi məntiqi struktur baxımından tam yerinə düşür. Bizcə, maraqlı və aktual əsaslandırmadır!

Professor Etibar Nəcəfovun vurğulanan mərhələlərdən sonra VI fəsildə multikulturalizmə beynəlxalq münasibətlər miqyasında nəzər salması, mövzunun qlobal xarakterinə işarədir. Burada İslamofobiya və antisemitizmin analizi təqdirəlayiqdir. Xüsusilə, İslamofobiyanın inkişaf etmiş

Avropa ölkələrində müxtəlif təşkilatlar tərəfindən yayılması faktının tədqiqi problemin qlobal miqyasda sosial-fəlsəfi dərkinə ciddi təkan verə bilər.

Monoqrafiyanın 6 fəslinin qısa təhlili göstərir ki, dünya miqyasında multikulturalizmin Azərbaycan modelindən bəhs etmək çox vacibdir. Prof. E.Nəcəfovun həmin baxımdan VII-sonuncu fəsli multikulturalizmin Azərbaycan modelinə həsr etməsi tam olaraq məntiqidir və əsərin struktur-funksional özəlliyinə tam uyğundur. Həmin modeli ierarxik formada bir neçə sosial-mədəni, siyasi və geosiyasi pillədə təqdim edilməklə müəllif Azərbaycanın müstəqil dövlət kimi düşünülmüş elmi əsaslarla idarə edildiyini göstərir. Burada multikulturalizmin ideologiya (Azərbaycançılıq) sferası ilə bağlılığının təhlili maraqlıdır.

Azərbaycançılığın mədəni sahədən siyasi sahəyə tarixi transformasiyasının sosial-fəlsəfi analizi vurğulanan kontekstdə çox əhəmiyyətli məqam təsiri bağışlayır. Həmin transformasiya işığında müəllif yazır: "Bu ideya (azərbaycançılıq – C.M., F.Q.) Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni xüsusiyyətlərini ifadə edərək onun yüksəlməsinə yönəlmişdir" (səh. 237). Deməli, müəllif əmindir ki, multikulturalizmin ideoloji əsasları tamamilə azərbaycançılıqda ifadə olunub. Bu, şübhəsiz E.Nəcəfova multikulturalizmin Azərbaycan modelinin cəmiyyətin və dövlətçilik ənənəsinin daxili inkişaf məntiqindən, dinamik transformasiyalarının xarakterindən qaynaqlandığı fikrini sosial-fəlsəfi aspektdə irəli sürməyə imkan verir. Burada biz faktiki olaraq multikulturalizmin ideoloji bazasının kifayət qədər əsaslı olduğunu görə bilirik. Eyni məntiqlə müəllif multikulturalizmin Azərbaycan modelinin siyasi, geosiyasi və geoiqtisadi aspektlərini təhlil edir, onları arqumentləşdirir.

Bu baxımdan "Bakı prosesi"nin, Azərbaycanın BMT TŞ-yə üzv, Qoşulmama Hərəkatına isə sədr seçilməsinin ayrıca analiz edilməsi oluqca təqdirəlayiqdir və əsərin stukrtur-funksional özəlliyinə tamamilə uyğundur.

Nəhayət, əsərin elmlə yanaşı təhsil üçün də qiymətli olduğunu bir daha vurğulamalıyıq. Dili sadə, anlaşıqlıdır. Azərbaycan dilinin qrammatikası və semantikasına tam uyğundur. Fikirlər aydın və dəqiq ifadə edilib. Bu məqamı müasir dövrümüz üçün çox əhəmiyyətli hesab edirik. Müasir elm və təhsilin fərqli xüsusiyyətləri ilə yanaşı, dilimizin qorunması, inkişafı və daha da elmiləşməsi baxımından vacibliyini qeyd etməliyik. Axı, Azərbaycan dili dövlət dilidir, multikulturalizm də dövlət siyasətidir. Dillə siyasət bir-birini tamamlayanda tərəqqi davamlı olur!

**Cahangir Məmmədov**
fəlsəfə elmləri doktoru, professor,
Bakı Slavyan Universiteti Azərbaycan
tarixi və ictimai elmlər kafedrasının müdiri

**Füzuli Qurbanov**
fəlsəfə elmləri doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu İdrak nəzəriyyəsi
şöbəsinin müdiri